**“İcra hakimiyyəti orqanlarında onlara həvalə edilmiş funksiyalara görə *təminedici və yardımçı* bölmələrin Siyahısı”nın təsdiq edilməsi haqqında**[1]

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 8.3-cü maddəsinin icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. “İcra hakimiyyəti orqanlarında onlara həvalə edilmiş funksiyalara görə təminedici və yardımçı bölmələrin Siyahısı” təsdiq edilsin (əlavə olunur).
2. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 22 oktyabr 2003-cü il
937

Azərbaycan Respublikası Prezidentinin
2003-cü il 22 oktyabr tarixli 937 nömrəli Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

**İcra hakimiyyəti orqanlarında onlara həvalə edilmiş funksiyalara görə təminedici və yardımçı bölmələrin**

**SİYAHISI**[2]

Təminedici bölmələr – mövcud qanunvericiliyə əsasən icra hakimiyyəti orqanlarına həvalə olunmuş vəzifə, funksiya və səlahiyyətləri bilavasitə həyata keçirən bölmələr, eləcə də kadr, hüquq, iqtisadiyyat, maliyyə, *ictimaiyyətlə əlaqələr (mətbuatla iş),* beynəlxalq əlaqələr, ümumi, məxfi (xüsusi) bölmələr (şöbələr, sektorlar).[3]

Yardımçı bölmələr – icra hakimiyyəti orqanlarının fəaliyyət göstərməsi ilə bağlı təminatı həyata keçirən bölmələr (İşlər idarəsi, mühasibat uçotu və hesabatı idarəsi (şöbəsi), təsərrüfat idarəsi (şöbəsi)~~, məlumat, informasiya bölmələri~~ və digər bölmələr).[4]

Mərkəzi icra hakimiyyəti orqanlarının aparatında (və ya onların fəaliyyətini təmin edən qurumlarda) konkret olaraq adları göstərilməklə təminedici və yardımçı bölmələrin siyahısı Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırılmaqla müvafiq icra hakimiyyəti orqanının rəhbəri tərəfindən təsdiq olunur.[5]

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 12 mart 2007-ci il tarixli **548** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 3, maddə 227**)
2. 28 may 2020-ci il tarixli **1041** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 5, maddə 566**)

-

**FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

-

---

[1] 12 mart 2007-ci il tarixli **548** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 3, maddə 227**) ilə Fərmanın adında və mətnində "aparıcı və köməkçi" sözləri "təminedici və yardımçı" sözləri ilə əvəz edilmişdir.

[2] 12 mart 2007-ci il tarixli **548** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 3, maddə 227**) ilə həmin Fərmanla təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarında onlara həvalə edilmiş funksiyalara görə aparıcı və köməkçi bölmələrin Siyahısı"nın adında və mətnində "**aparıcı**" sözü "**təminedici**" sözü ilə, "**köməkçi**" sözü "**yardımçı**" sözü ilə əvəz edilmişdir.

[3] 12 mart 2007-ci il tarixli **548** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 3, maddə 227**) ilə birinci abzasında "**həvalə olunmuş funksiyaları**" sözləri "**həvalə olunmuş vəzifə, funksiya və səlahiyyətləri**" sözləri ilə əvəz edilmişdir.

28 may 2020-ci il tarixli **1041** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 5, maddə 566**) ilə “İcra hakimiyyəti orqanlarında onlara həvalə edilmiş funksiyalara görə təminedici və yardımçı bölmələrin Siyahısı”nın birinci abzasına “**maliyyə,**” sözündən sonra “**ictimaiyyətlə əlaqələr (mətbuatla iş),**” sözləri əlavə edilmişdir.

[4] 28 may 2020-ci il tarixli **1041** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 5, maddə 566**) ilə “İcra hakimiyyəti orqanlarında onlara həvalə edilmiş funksiyalara görə təminedici və yardımçı

bölmələrin Siyahısı"nın ikinci abzasından "**, məlumat, informasiya bölmələri**" sözləri çıxarılmışdır.

[5] 12 mart 2007-ci il tarixli **548** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 3, maddə 227**) ilə üçüncü abzasında "**mərkəzi aparatında**" sözləri "**aparatında (və ya onların fəaliyyətini təmin edən qurumlarda)**" sözləri ilə əvəz edilmişdir.